**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

## KORPORATİV MALİYYƏ

***( 6 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***


***Müəllim(mühazirə):Ass.İsmayılova Təranə Vidadi qızı***
***Müəllim(seminar):Ass.Məsimli Nərmin Afiq qızı***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 117
**İş nömrəsi: 268 94 53**
**Mob**: 050 694 99 86
**İş saatları: 8 00 – 16 00**
**E-mail: terane-memmedova-92@mail.ru**

**GƏNCƏ-2021**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxunulmalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənləəlaqəli informasiyalarla tanış ola bilərlər.

## *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda əyani qaydada auditoriyalada keçirilir:

Cümə axşamı,16:00-17:00 (mühazirə)
Cümə, 13:30-14:30 (seminar)

## *Fənnin təsviri*

Korporativ maliyyə fənninin tədris edilməsində əsas məqsəd müəssisə və təşkilatlarda maliyyənin idarə olunmasının müasir metodlarını tələbələrə aşılamaq,onlardan nəzəri məsələlərin həllində və praktikada istifadə etmək bacarıqlarını inkişaf etdirməkdir.

Tədris proqramı elə tərtib edilmişdir ki,məlum nəzəri biliklər əsasında yeni yaranmış və fəaliyyətdə olan iri həcmli müəssisələrdə korporativ maliyyə məsələləri tələbələrlə interaktiv şəkildə müzakirə olunur.Müasir dövrdə müəssisə və təşkilatların fəaliyyət mühiti və baş verən proseslər,həmçinin tez-tez baş verən iqtisadi böhranlar nəzərə alinmaqla şirkətin maliyyə menecmentinin taktiki və strateji məsələləri aşılanır.

Hazırladığımız Korporativ maliyyə fənninin tədris proqramı ali təhsilin "Maliyyə və" Mühasibat uçotu və audit" ixtisasları üzrə bakalavr səviyyəsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Fənnin məqsədi maliyyə alətlərinin qiymətləndirilməsi,müəssisələrin qarşılaşdıqları maliyyə problemləri,sərmayə hərəkətliliyi,kaptalın son dəyəri və kapitalın son hədd dəyəri,uzunmüdətli maddi aktivlərə investisiya,lizinq kimi xüsusi investisiya qərarı verilərkən istifadə edilən metodlar öyrətməkdir.

Proqramda korporativ maliyyənin mahiyyəti,qısa və uzun müddətli maliyyə mənbələri,divident siyasəti,maliyyə bazarları,aktivlər,kapitalın strukturu və leverec,eləcə də,aktivlərin növlərindən asılı olaraq qiymətləndirilməsi,effektiv bazar nəzəriyyəsi,riskin mahiyəti və növləri,valyutalar üzrə əməliyyatlar,korporasiyaların qovuşması və s. kimi mövzular oz əksini tapmışdır.

Korporativ maliyyə fənninin tədris olunması tələbələrə nəzəri biliklər verməklə yanaşı,hər bir mövzu praktiki bir nümunə ilə əlaqələndirilir,nəzəriiyyə ilə təcrübə birlikdə tədris olunur.Təqdim olunan proqram dünyanın qabaqcıl universitetlərində istifadə olunan dərsliklər və mövcud standartların tələbləri əsasında hazırlanmışdır.

Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:
- müəssisə və təşkilatlarda korporativ maliyyənin tətbiqi aspektlərini öyrənib tətbiq etmək;

- qısamüddətli dövrdə bank krediti limitinin,ticarər krediti və lizinq maliyyələşmələrinin təyin edilib öyrənilməsi;

- müəssisələr üçün mümkün uzunmüddətli maliyyə mənbələrinin müəyyən edilməsi və kapital maliyyələşməsinin müzakirə edilməsi;

- İslam maliyyəsi və ənənəvi maliyyənin əsas fərqlərinin aydınlaşdırılması,Müəssisələrin istifadə edə biləcəyi qısa və uzunmüddətli Islam maliyyə alətlərinin öyrənilməsi;

- divident siyasətinin maliyyələşmə qərarı ilə ələqəsinn oyrənilməsi,hımçinin dividend siyasətinin praktiki təsirlərinin aydınlaşdırılması;

- maliyyə vasitəçilərinin bazarda rolunun müəyyənləşdirilməsi və müxtəlif qiymətli kağızların mahiyyətinin öyrənilməsi;

- kapital Aktivlərinin Qiymətləndirilməsi Modelinin(KAQM) əsas komponentlərinin,həmçinin üstünlükləri və çatışmazlıqlarının müəyyənləşdirilməsi;

- kapital alətləri silsiləsinin aydınlaşdırılması;

- riskin növlərinə uyğun olaraq onların üstün və çatışmayan cəhətlərinin müzakirəli şəkildə müəyyənləşdirilməsi;

- korporasiyalarda restruktruzasiya şərtlərinin müəyyənləşdirilməsi və öyrədilməsi;

***Planlaşdırlan təlim nəticələri***

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:
- müəssisə və təşkilatlarda korporativ maliyyə nəzəriyyələrinin araşdırılması və düzgün tətbiqi;

- qısamüddətli bank krediti və ticarət kreditinin mövcud limitinin müəyyənləşdirilib tətbiq edilməsi;

- uzunmüddətli lizinq və borc maliyyələşməsinin araşdırılması;

- nağd pul dividendinin alternativlərinin tapılması və hüquqi məhdudiyyətlərin öyrənilməsi;

- həm milli,həm də beynəlxalq miqyasda pul və kapital bazarlarının araşdırılması;

- kapital bazarı çatışmazlıqlarının diapazonunun müəyyənləşdirilməsi və onların Miller və Modilyanın kapital strukturu modelləri üzzərində işlənilməsi;

- xalis qaliq dəyəri,xalis satış dəyərinin hesablanması, qiymət-gəlir nisbəti üsulunun tətbiqi;

- konvertasiya,əməliyyat və iqtisadi riskin hesablanması;

- ödəmə balansları,alıcılıq qabiliyyəti pariteti,faiz dərəcələri paritetinin müəyyənləşdirilməsi;

- faiz dərəcəsinin hedcinqində istifadə olunan faiz dərəcəsi derivativlərinin əsas növlər üzrə öyrənilməsi;

*Fənn üçün 75 saat (6 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır.*

***Fənnin tematik təqvimi***

**2.2. Fənnin mövzular üzrə planı**

| № | Mövzunun adı | Dərs yükünün həcmi (saat) | | |
|---|---|---|---|---|
| | | **Cəmi** | **Mühazirə** | **Seminar** |
| **1** | **2** | **3** | **4** | **5** |
| 1 | Korporativ maliyyənin mahiyyəti. | 4 | 2 | 2 |
| 2 | Qısa və uzunmüddətli maliyyə mənbələri. | 6 | 2 | 4 |
| 3 | Qısa və uzun müddətli maliyyə vəsaitlərinin İslam maliyyəsi vasitəsilə əldə edilməsi. | 4 | 2 | 2 |
| 4 | Divident siyasəti. | 4 | 2 | 2 |
| 5 | Maliyyə bazarları və aktivlər. | 6 | 2 | 4 |
| 6 | Borclanma və kapitalın strukturu.Leverec | 6 | 2 | 4 |
| 7 | Kapital maliyyətinin qiymətləndirilməsi. | 4 | 2 | 2 |
| 8 | Borc və digər kapital alətlərinin qiymətləndirilməsi:kapitalın orta çəkili maliyyətinin və marjinal maliyyətinin hesablanması. | 6 | 2 | 4 |
| 9 | Biznesin və maliyyə aktivlərinin qiymətləndirilməsinin mahiyyəti | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | və məqsədi | | | |
| 10 | Səhmlərin,borcların və digər maliyyə aktivlərinin qiymətləndirilməsi. | 6 | 2 | 4 |
| 11 | Effektiv bazar nəzəriyyəsi | 4 | 2 | 2 |
| 12 | Riskin mahiyyəti və növləri | 4 | 2 | 2 |
| 13 | Mübadilə məzənnələri arasındakı fərqlər və faiz dərəcələrindəki dəyişikliklər. | 6 | 2 | 4 |
| 14 | Xarici valyuta və faiz dərəcəsi riski ilə bağlı hedcinq üsulları | 6 | 2 | 4 |
| 15 | Korporasiyaların qovuşması və restrukturizasiyası. | 5 | 2 | 3 |
| | Cəmi: | 75 | 30 | 45 |

***Mühazirənin quruluşu.***

Mühazirə müddəti 80 dəqiqə əyani olaraq auditoriyalarda keçirilir.. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.

Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

***Seminar***

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyələr:*** *Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

### *Sərbəst işlər*

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

### *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılanApelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

### *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan imtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

### *Tövsiyə olunan ədəbiyyat*

1. M. Sadıqov, A. Hüseynov, V. Zeynalov , " Korporativ maliyyə", İqtisad Universiteti, 2007

2. AR Maliyyə Nazirliyi yanında METM, " Maliyyə menecmenti" (peşəkar səviyyə), Bakı 2013

3. AR Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, "Qiymətli Kağızlar Bazarı", Bakı, 2015.

4. Paul Asquith , Lawrence A. Weiss John Wiley & Sons, "Lessons in Corporate Finance" , Business & Economics March 2019

5. Terence C.M. Tse, "Corporate Finance", Kindle Edition, August 2017

**Əlavə ədəbiyyat**

1. Richard A.Brealey, “ İşletme Finansının Temelleri”, Literatür Yayıncılık, 2007
2. Niyazi BERK , “ Finansal Yönetim”, Türkmen Kitabevi, 2010
3. M. Ş. Tekbaş, “Temel Finans Matematiği ve Değerleme Yöntemleri”, İstanbul, 2014
4. Ross, Westerfield & Jordan, “ Fundamentals of Corporate Finance”, McGraw-Hill Press, 2016
5. Brealey, Myers, “Principles of Corporate Finance”, 7th edition, McGraw-Hill Press, 2013
6. Greg Shields, “Risk Management: The Ultimate Guide to Financial Risk Management as Applied to Corporate Finance” , Kindle Edition, June 2018
7. Paul Mladjenoviç, “Fond birjasında investisiyası”, “Headstart İnternational” nəşri, Bakı 2011
8. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanunu
9. Richard **A.** Brealey**,** Stewart C**.** Myers**,** Alan J**.** Marcus **, “** Fundamentals **of** Corporate Finance” **,** Common terms and phrases , 2007